AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№48 (1318), 8 - 10 avqust 2017-ci il

Qəzet 2001-ci ildən çıxır.

# ABŞ dünya çempionatının estafetini Azərbaycana verib



ABŞ-ın Cənubi Karolina ştatının Rok Hill səhərində velosiped idmanının BMX növü üzrə dünya çempionatı başa çatıb. Qərb dünyasında çox populyar olan bu yarışda planetin 48 ölkəsindən 3750 idmançı iştirak edib. 48 ölkədən 3750 idmançının iştirak etdiyi yarışa rəsmi qonaq kimi Azərbaycan nümayəndə heyəti də qatılıb. Rok Hill şəhərinin meri Duq Ekolsla görüş zamanı Azərbaycan Velosiped İdmanı Federasiyasının I vitse-prezidenti Sahib Ələkbərov BMX üzrə dünya çempionatının estafetini ABŞ kimi ölkədən qəbul etməyin Azərbaycanın üzərinə əlavə bir məsuliyyət qoyduğunu bildirib. Bu idman növü Qərbdə çox populyar olsa da, Azərbaycanda yalnız Bakı-2015 I Avropa Oyunlarından sonra tanınmağa başlayıb. Avropa Oyunlarında Azərbaycanın digər idman növləri kimi, velosiped yarışlarını da ən yüksək səviyyədə təşkil etdiyini görən Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) 2018-ci il dünya çempionatını Azərbaycan Velosiped İdmanı Federasiyasına etibar edib və dövlət başçısı İlham Əliyevin tapşırığı ilə hazırlıq işlərinə başlanılıb.

*(ardı 2-ci səhifədə)*




# Paracüdoçularımızın Avropa zəfəri

İngiltərənin Valsall şəhərində paracüdo üzrə keçirilən Avropa çempionatı başa çatıb. Yarışda Azərbaycan Milli Paralimpiya Komitəsinin cüdo üzrə komandasının üzvləri də iştirak ediblər. Paralimpiyaçılarımız Avropa çempionatını 7 medalla başa vurublar.

Cüdoçularımızdan İlham Zəkiyev, Rövşən Səfərov, Sevda Vəliyeva və Xanım Hüseynova qızıl medala layiq görülüblər. Bayram Mustafayev ikinci yeri tutub. Ramil Qasımov və Hüseyn Rəhimli isə bürünc medal qazanıblar.

## Pley-off oyunlarının başlama vaxtı dəqiqləşib

## *Bakıda keçirilən atıcılıq üzrə Avropa çempionatı başa çatıb*

## *MDB ölkələri milli idman növlərinin və oyunlarının birinci festivalı keçiriləcək*

## Triatlonçumuz Avropa çempionatında mübarizə aparıb

## Velosipedçilər Danimarkada yarışıblar

## Hollandiya yığması turnirin qalibi seçildi

Səh. 2

## *Boksçularımız Minskdə 5 medala layiq görülüblər*

Sovet İttifaqı Qəhrəmanı Viktor Liventsevin xatirəsinə həsr olunan beynəlxalq boks turnirinə yekun vurulub. Belarusun paytaxtı Minskdə keçirilən yarışda 15 ölkədən 100-dən artıq kişi və qadın boksçu qüvvəsini sınayıb.

Turnirdə mübarizə aparan Azərbaycan yığması Vətənə beş medalla dönüb. Millimizin heyətində Pərviz Bağırov (69 kq) finaladək irəliləyib və gümüş medalla kifayətlənib. Onun komanda yoldaşı Umud Rüstəmov (56 kq) yarışı üçüncü pillədə başa vurub.

Digər üç medalı isə qadın boksçularımız qazanıblar. Həmyerlilərimizdən Anaxanım Ağayeva (51 kq), Məhsəti Həmzəyeva (57 kq) və Şəhla Allahverdiyeva (75 kq) bürünc medala sahib olublar.

Qeyd edək ki, Fuad Aslanov turnirdə ölkəmizi hakim kimi təmsil edib.



## İdmançımız "Ribas" turunda 3-cü yeri tutub

Səh. 2

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## Vətənpərvərlik tərbiyəsi və fiziki tərbiyə vəhdət təşkil edir

Səh. 3

# *Olimpizm*

### *Daha bir idman növünün Olimpiya proqramına daxil edilməsi ehtimalı var*

Beynəlxalq Voleybol Federasiyası (FİVB) qış voleybolunun Olimpiya Oyunlarının proqramına daxil edilməsi üçün bütün mümkün tədbirləri görür. Bu barədə jurnalistlərə açıqlamasında FİVB-in baş direktoru Fabio Azevedo məlumat verib.



Qeyd edək ki, qışda oynanılan, yəni qar voleybolu 2 il bundan əvvəl rəsmi status alıb. Bu növdə qaydalar elə çimərlik voleybolunda olduğu kimidir.

"Avstriya keçən ilin qışında bu tip yarışlar keçirib və özü də müvəffəqiyyətlə. Bu növün Olimpiya proqramına daxil edilməsi məsələsinə gəlincə, realist olmalıyıq. Düşünürəm ki, bu barədə danışmaq hələ tezdir. Lakin onu da etiraf etməliyik ki, biz texnologiya əsrində yaşayırıq. Ola bilsin ki, qış voleybolu daha çox tamaşaçı marağı cəlb etsin və bu məsələ tez həll olunsun. Biz qış voleybolunun Olimpiya Oyunlarının proqramında daxil edilməsi üçün onun inkişafına çalışırıq. Gələcəkdə qış voleybolunun Olimpiya proqramında yer almasına inanırıq", - deyə beynəlxalq federasiyanın baş direktoru bildirib.

### *Mariya Şarapova xüsusi dəvət alıb*

Dünya şöhrətli tennisçi Mariya Şarapova Qadın Tennis Assosasiyasının (WTA) Pekində keçiriləcək turnirinə xüsisi dəvət (wild cart) alıb.

Məlumat üçün bildirək ki, turnirin mükafat fondu 6,3 milyon dollar təşkil edir. China Open-2014 turnirinin qalib olan Mariya Şarapova bu yarışda 7-ci dəfədir ki, iştirak edir. Yarış bu il sentyabrın 30-dan oktyabrın 8-dək keçiriləcək.

Mariya Şarapova antidopinq qaydalarını pozduğuna görə, 15 ay müddətinə idmandan uzaqlaşdırılmışdı. Məşhur tennisçi bu ilin aprelindən yarışlarda iştirak etməyə başlayıb.

### *Olimpiya yığmasına yeni baş məşqçi təyin edilib*

ABŞ Hokkey Federasiyasının Olimpiya yığmasına yeni baş məşqçi təyin edilib. Pxençxan-2018 Olimpiya Oyunlarında iştirak edəcək komandanı bundan sonra Toni Qranata çalışdıracaq. O, əvvəllər NXL-in "Kolorado Evelanş" komandasının baş məşqçisi vəzifəsində çalışıb.



Məlumat üçün bildirək ki, NXL-in oyunçuları, yəni ABŞ-ın aparıcı hokkeyçiləri Pxençxan-2018 Olimpiadasında iştirak etməyəcəklər.

Pxençxan-2018 Qış Olimpiya Oyunları fevralın 9-25-də keçiriləcək. ABŞ yığması qrup mərhələsində Rusiya, Slovakiya və Sloveniya komandaları ilə mübarizə aparacaq.

# ABŞ dünya çempionatının estafetini Azərbaycana verib

*(əvvəli 1-ci səhifədə)*

2015-ci ilin əvvəlində paytaxtda ən müasir tələblərə cavab verən BMX stadionu inşa edilsə də, 2016-cı ildə UCI müvafiq qaydaları və stadionların ölçülərini dəyişdiyindən Bakı stadionu yenidən qurulub, trekin uzunluğu, eni, maneələrin sayı və döngələrin hündürlüyü artırılıb.

Dünya çempionatında iştirak edən 2 qat olimpiya, 6 qat dünya çempionu, kolumbiyalı Mariana Pajon gələn il böyük məmnuniyyətlə ölkəmizə səfər edəcəyini deyib: "BMX idman növünün populyarlaşmasında göstərdiyi xidmətlərə görə Azərbaycan Velosiped İdmanı Federasiyasına təşəkkürümü bildirirəm. Şadam ki, gələn il dünya çempionatı Azərbaycanda keçiriləcək və səbirsizliklə bu yarışı gözləyirəm. Artıq ölkəniz, həmçinin yarış treki ilə müəyyən qədər tanış olmuşam və hər şeyin yüksək səviyyədə olacağına əminəm".

BMX üzrə UCI-nin keçirdiyi və bütün ölkə nümayəndələrinin iştirak etdiyi toplantıda Azərbaycan nümayəndə heyəti geniş təqdimatla çıxış edib. Təqdimatın əvvəlində göstərilən ölkəmizin gözəlliklərini, idmana olan dövlət qayğısını və velosiped idmanının inkişafını əks etdirən videoçarx hamının böyük marağına səbəb olub. Çempionata gələcək iştirakçıların transferi, vizaların alınma qaydaları, otellərdə yerləşdirmə və s. məsələlər də böyük razılıqla qarşılanıb. Yarışın sonunda çempionatın bayrağı estafet kimi Azərbaycan nümayəndə heyətinə təqdim edilib.

Qeyd edək ki, BMX növü üzrə dünya çempionatı 2018-ci il iyunun 5-9-da Bakıda keçiriləcək.

# Pley-off oyunlarının başlama vaxtı dəqiqləşib




***Ağdamın "Qarabağ" və Danimarkanın "Kopenhagen" komandaları arasında keçiriləcək UEFA Çempionlar Liqasının pley-off matçlarının başlama saatları məlum olub.***

Avqustun 15-də Bakıdakı Tofiq Bəhramov adına Respublika Stadionunda təşkil olunacaq ilk qarşılaşma saat 20:00-da başlayacaq. Bu, həm də günün ilk oyunu olacaq.

Cavab görüşü isə avqustun 23-də Danimarkada Bakı vaxtı ilə saat 22:45-ə təyin olunub. Görüş Kopenhagendəki "Telia Parken" stadionunda keçiriləcək.

Xatırladaq ki, Azərbaycanın çempionu "Qarabağ" Çempionlar Liqasının ikinci təsnifat mərhələsində Gürcüstanın "Samtredia", üçüncü təsnifat raundunda isə Moldovanın "Şerif" klublarını mübarizədən kənarlaşdıraraq turnirin pley-off mərhələsinə yüksəlib.

# Velosipedçilər Danimarkada yarışıblar



Danimarkanın Herninq şəhərində velosiped idmanının şosse növü üzrə Avropa çempionatı başa çatıb. Gənclər, U-23 və Elit kateqoriyası üzrə təşkil olunan bu yarışda 5 idmançımız mübarizə aparıb.

Avropa çempionatının keçirildiyi müddətdə Danimarkada müşahidə olunan yağışlı hava şəraiti yarışın gedişinə öz təsirini göstərib. Belə ki, yarışda mübarizə aparan 152 gənc velosipedçidən yalnız 117-si məsafəni başa vurmağa müvəffəq olub. Komandamızın üzvlərindən İvan Orlovun velosipedinin təkəri finişə 25 km qalmış sıradan çıxıb. Mikayıl Səfərlinin isə finişə 8 km qalmış toqquşub. Bu da hər iki velosipedçimizi vaxt itkisinə məruz qalıb və onıar əsas pelotondan aralı düşüblər. Bununla belə, hər iki idmançımız 120,6 km məsafəni başa vurmağı bacarıblar.

157 velosipedçinin starta çıxdığı U-23 yaş kateqoriyasında 160,8 km məsafəyə mübarizə zamanı da eyni hadisələr yaşanıb. Kənan Qəhrəmanlı və daha 20 iştirakçı qəza səbəbindən yarışı başa vura bilməyiblər. Elgün Əlizadənin finişə 300 metr qalmış qəzaya uğraması onu 69-cu edib.

Qadın velosipedçimiz Yelena Pavluxinaya gəlincə, fərdi ötüşmədə 15-ci yeri tutan təmsilçimiz 120,6 km məsafyə qrup ötüşməsində çempion olmuş hollandiyalı idmançıdan 18 saniyə geri qalmaqla 97 nəfər arasında 35-ci nəticə göstərib.

U-23 yaş kateqoriyasında qalib olmuş danimarkalı idmançıya çempion köynəyini və qızıl medalı Azərbaycan Velosiped İdmanı Federasiyasının 1-ci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov təqdim edib.

# İdmançımız "Ribas" turunda 3-cü yeri tutub

Ukraynanın Odessa şəhərində Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı "Ribas" turu keçirilib. Birgünlük yarışda Azərbaycanı yığma komandasının



üzvləri Elçin Əsədov, Ənvər Asanov, İsmayıl İlyasov və Musa Mikayılzadə təmsil ediblər.

Velosipedçilərimizdən ən yüksək nəticəni yığmamızın lideri Elçin Əsədov qazanıb. Təmsilçimiz 154 km məsafəni 3 saat, 42 dəqiqə, 55 saniyəyə qət edərək finiş xəttini 3-cü keçib. Bu nəticə idmançımıza 25 reytinq xalı qazandırıb.



# Triatlonçumuz Avropa çempionatında mübarizə aparıb

Azərbaycanın triatlon üzrə yığmasının üzvü Darina Moskalenko Macarıstanın Velense şəhərində keçirilən gənclər arasında (U-23) Avropa çempionatında 6-cı yeri tutub.

750 metrlik su məsafəsini idmançımız 10:31 vaxt çərçivəsində başa vurub. Ardınca isə 20 kilometrlik velodistansiyanı 33:28 nəticə ilə qət edib. Nəhayət, yarışların son mərhələsini - 5 kilometrlik qaçış zolağını Darina Moskalenko 18:41 nəticə ilə başa vurub. Ümumi hesablamada Darina 01:04:13 vaxt göstəricisi ilə 6-cı yerə layiq görülüb.

Turnirdə 39 idmançı mübarizə aparıb. Yarışın qalibi isə britaniyalı Corciya Teylor-Braun olub.

# *Bakıda keçirilən atıcılıq üzrə Avropa çempionatı başa çatıb*

Bakıda keçirilən atıcılıq üzrə Avropa çempionatı avqustun 3-də başa çatıb. Çempionatın sonuncu günündə 50 metr məsafədən qarışıq hərəkətdə olan hədəfə atəşaçmada kişilər arasında fərdi yarışın qalibi İsveç təmsilçisi olub. Emil Martinsson



3955 xal toplayaraq qızıl medal qazanıb. Gümüş medala 392 xal toplayan rusiyalı Mixail Azarenko yiyələnib. Finlandiyalı Topi Hulkkonen isə 390 xalla ilk üçlüyü qapayıb. Əlli metr məsafədən qarışıq hərəkətdə olan hədəfə atəşaçmada kişilər arasında komanda yarışının qalibi Rusiya təmsilçiləri olub. Mixail Azarenko, Maksim Stepanov, Dimitri Romanov ümumilikdə 1169 xal toplayaraq rəqiblərini üstələyib və fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Gümüş medalı 1167 xalla İsveç atıcıları Emil Martinsson, Jasper Nyberg, Rickard Johansson qazanıb. Finlandiyalı Topi Hulkkonen, Heikki Lahdekopi, Tomi-Pekka Heikkla 1161 xalla bürünc mükafata layiq görülüb. Əlli metr məsafədən qarışıq hərəkətdə olan hədəfə atəşaçmada kişi yeniyetmələr arasında yarışın qalibi isə Ukrayna təmsilçisi olub. İqor Kizima 387 xal toplayaraq qızıl medal qazanıb. İsveçrəli atıcı Berqstroem Andreas 379 xalla gümüş medala yiyələnib. Rusiya təmsilçisi Valeri Davidov 378 xal toplayaraq bürünc medala sahib olub. Bununla da Avropa çempionatına yekun vurulub.

# *MDB ölkələri milli idman növlərinin və oyunlarının birinci festivalı keçiriləcək*

Müstəqil Dövlətlər Birliyi ölkələrinin ən iri idman tədbiri təşkil olunur. Avqustun 12-15-də Rusiyanın Ulyanovsk vilayətində MDB ölkələrinin milli idman növlərinin və oyunlarının birinci festivalı keçiriləcək. Bu festivala 1000-dən çox idmançı və 70 mindən çox azarkeş qatılacaq. Azərbaycanın da iştirak edəcəyi bu mötəbər tədbirin proqramına Olimpiya və qeyri-Olimpiya idman növləri daxil edilib. Təntənəli paradla başlayacaq festivalda MDB xalqlarının milli idman ənənələri ilə bağlı sərgi, Birliyə üzv ölkələrin idman kinosu festivalı keçiriləcək. Həmçinin MDB ölkələri və xalqlarının dostluğu parkının təməli qoyulacaq. Bundan başqa, idman və estrada ulduzları ilə gündəlik təlimlər, beynəlxalq etno-mədəni forum təşkil ediləcək. Festivalda 70 dəst medal uğrunda mübarizə aparılacaq.

# Hollandiya yığması turnirin qalibi seçildi



***Avqustun 5-də Bakı Su İdmanı Sarayında futvole (çimərlik voleybolu və futbolun sintezi) üzrə beynəlxalq turnirə yekun vurulub.***

Azərbaycan Futnet Assosiasiyasının (AFNA) təşkilatçılığı ilə keçirilən turnir iki gün davam edib. Beynəlxalq futvole yarışları sırasına daxil olan və "Baku World Open" adlanan turnirdə kişilərdən ibarət 8, qadınlardan ibarət 4 komanda mübarizə aparıb.

Qadınların yarışında Azərbaycan, Rusiya (iki komanda) və Ukrayna yığması iştirak edib. Kişilərin yarışında Azərbaycan yığması ilə yanaşı, Rusiya (iki komanda), Finlandiya, Pakistan, Hollandiya, İran və Ukrayna komandaları gücünü sınayıb. Əvvəlcə Azərbaycanın qadınlardan ibarət yığması Rusiyanın birinci komandası ilə qarşılaşıb. Təmsilçilərimiz ilk görüşdə qalib gəliblər - 2:0.

Sonra turnirin açılış mərasimi keçirilib. Mərasimdə AFNA-nın prezidenti Vüqar Xəlilov yarış iştirakçılarını və idmançıları salamlayaraq onlara uğurlar arzulayıb. Daha sonra "Baku World Open" turniri rəsmi olaraq açıq elan edilib. Yarış kişilərdən ibarət komandaların oyunları ilə davam edib. Qrup mərhələsi çərçivəsində keçirilən matçlar sonunda Azərbaycan, Rusiya, Hollandiya və İran yarımfinala vəsiqə qazanıb. Turnirin bu mərhələsində Hollandiya Azərbaycan yığmasını məğlub edərək, finala adını yazdırıb. İkinci finalçı isə Rusiya komandasını yenən İran yığması olub. Hollandiya və İran arasında baş tutan final qarşılaşmasında, avropalılar Asiya təmsilçisinə 2:1 hesabı ilə qalib gələrək, ilk dəfə keçirilən "Baku World Open" turnirinin qalibi adını qazanıb.

Qadınların yarışında isə Ukrayna yığması bütün rəqiblərini arxada qoyub. Qaliblərə kubok, medal və qiymətli hədiyyələr verilib.

# "Neftçi idman klubu" İB

## Güləş





Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda yeniyetmə güləşçilərin Avropa birinciliyinə yekun vurulub. Milli komandanın üzvü, "Neftçi İdman Klubu"nun yetirməsi Şəhanə Nəzərova Avropa çempionu tituluna sahib olub. Qitə birinciliyində 38 kq çəki dərəcəsində mübarizə aparan xanım güləşçimiz bütün görüşləri qələbə ilə başa vurub.

## Cüdo



Almaniyanın paytaxtı Berlində gənclər arasında keçirilən cüdo üzrə Avropa kuboku yarışı sona yetib. 37 ölkədən 513 idmançının (317 oğlan, 196 qız) mübarizəyə qoşulduğu mötəbər yarışda Azərbaycan yığma komandası 20 cüdoçu (15 oğlan, 5 qız) ilə təmsil olunub.

Millimizin üzvləri qitə turnirində uğurla çıxış edərək 6 medala (3 qızıl, 1 gümüş, 2 bürünc) sahib olublar.

Qazanılan uğurda "Neftçi İdman Klubu"nun yetirmələri böyük pay sahibi olublar. Belə ki, gənc cüdoçularımızdan 100 kq çəki dərəcəsində ölkəmizin şərəfini qoruyan Zelim Kotsoyev bütün qarşılaşmaları qələbə ilə başa vuraraq Avropa kubokuna sahib olub. Naim Hüseynov (81 kq) isə fəxri kürsünün üçüncü pilləsi ilə kifayətlənib.

Xanım cüdoçuların yarışında Nəzakət Əzizova (52 kq) rəqib tanımayaraq qızıl medala yiyələnib. 48 kq çəki dərəcəsində çıxış edən Leyla Əliyeva isə yarışın gümüş medalına layiq görülüb.

## Uşu

İyulun 28-də Gürcüstanın paytaxtı Tbilisidə startı verilmiş qarışıq döyüş növləri üzrə dünya kubokuna yekun vurulub. Yarışda Azərbaycan, Türkiyə, Gürcüstan, İran, Özbəkistan, Rusiya, Qazaxıstan, Hindistan, Türkmənistan və Ermənistandan olan idmançılar qüvvələrini sınayıblar.

"Neftçi İdman Klubu" turnirdə 14 yetirməsi ilə təmsil olunub. Uşuçularımızdan Ziya Məmmədov (sanda, 40 kq), Rahib İbrahimov (kikboksinq, 40 kq), Murad Bəhramzadə (kikboksinq, 48 kq), Rəşad Qəhrəmanov (kikboksinq, 56 kq), Məhəmməd Musayev (kikboksinq, 60 kq), Alim Kazımov (sanda, 70 kq), Heydər Qasımov (kikboksinq, 70 kq) və Rabil Kərimov (kikboksinq, +91 kq) bütün döyüşləri qələbə ilə başa vuraraq qızıl medala yiyələniblər. Yaşar Bayramov (sanda, 60 kq) 2-ci, Əli Məmmədov (sanda, 56 kq) isə 3-cü yeri tutub.

Kiçikyaşlı uşuçularımızdan 30 kq çəki dərəcəsində mübarizə aparan Toğrul Dünyamalıyev qızıl, Xəzər Xanmirzəyev (hər ikisi kikboksinq, 33 kq) isə gümüş medala layiq görülüb.

Klubumuzun uşu üzrə məşqçisi Rafət Əsədov yarışda "ən yaxşı məşqçi" nominasiyasının qalibi olub.

***"Neftçi İdman Klubu" İctimai Birliyinin mətbuat xidməti***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Vətənpərvərlik tərbiyəsi və fiziki tərbiyə vəhdət təşkil edir

***Ölkəmizdə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi və milli mənlik şüurunun inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilir. Belə tədbirlər respublikamızın bütün bölgələrini əhatə edir. Bölgələrdə fəaliyyət göstərən gənclər və idman idarələri də bu işdə fəallıq göstərirlər.***

***Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsi gənclərin çoxluq təşkil etdiyi bu şəhərdə vətənpərvərlik mövzusuna geniş yer ayırır. Şəhərin yeniyetmə və gənclərinin milli ruhda yetişdirilməsi bu idarənin fəaliyyət proqramının əsasını təşkil edir. Hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində aparılan işlər şəhərdə fəaliyyət göstərən müxtəlif dövlət qurumları, ictimai təşkilatlarla birgə həyata keçilir. "Şahinlər" hərbi-idman və "Cəsurlar" hərbi-idman və turizm oyunları, "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü məktəbli yeniyetmələr tərəfindən həvəslə qarşılanır. Sumqayıtlı gənclərin N saylı hərbi hissələrlə əməkdaşlığı da ildən-ilə gücləndirilir. Bütün bunlar isə, şübhəsiz ki, gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır.***

***"Gənclik şəhəri"ndə bu ilin 6 ayı ərzində həyata keçirilən tədbirlər barədə daha ətraflı məlumat almaq üçün Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin rəis əvəzi Mübariz Başirovla görüşdük.***

***- Mübariz müəllim, gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi bu gün dövlətimizin prioritet məsələlərindən biridir. Bu yöndə lazımı işlər aparılmaqdadır. "Gənclik şəhəri" adlanan Sumqayıtda gənclərlə bağlı hansı işlər görülür?***

- Şübhəsiz ki, gənclərimizin hərbi-vətənpərvərlik tərbiyəsi işi ön plandadır. Çünki torpaqlarımızın 20 faizdən çoxu erməni qəsbkarlarının işğalı altındadır. Bir milyondan çox qaçqın və məcburi köçkünlərimiz var. Belə bir vəziyyətdə qarşıda duran əsas vəzifələrimizdən biri gənclərimizi düzgün istiqamətləndirmək və onların hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi işinə xüsusi önəm verməkdir. Ölkəmizin hər yerində olduğu kimi, Sumqayıt şəhərində də bu işə xüsusi diqqətlə yanaşılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, digər sahələrdə olduğu kimi, gənclərlə iş sahəsində də çoxsaylı dövlət proqramları qəbul olunub və həyata keçirilir. Dövlət proqramlarında hərbi-vətənpərvərlik tərbiyəsi işinə xüsusi yer ayrılıb. Bu baxımdan, bizim üzərimizə də, çox böyük məsuliyyət düşür. Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin əsas məqsədi böyüməkdə olan gənc nəsli bu işə cəlb etməkdir. Yəni gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi bizim işimizin əsasını təşkil edir. Gənclərin orduya hazırlığı istiqamətində müəyyən işlər aparılır. Sumqayıt şəhər icra hakimiyyətinin rəhbərliyi ilə son illərdə şəhərimizdə bir sıra mütərəqqi ənənələrin təməli qoyulub. Bu tədbirlər ictimaiyyət tərəfindən çox böyük razılıqla qarşılanır.

Bu ənənələrdən biri də məktəblilərin hərbi paradıdır. Bu parad Sumqayıt şəhər Təhsil Şöbəsi ilə birgə yüksək səviyyədə hazırlanıb həyata keçirilir. Hərbi parada 50 məktəbdən təqribən 3 min məktəbli cəlb olunur. Balaca uşaqların kiçik hərbi-texnikalarla keçidi ictimaiyyət tərəfindən çox böyük maraqla qarşılanır. Hərbi keçidi Sumqayıtın minlərlə sakini qürurla seyr edir.

***- Sizcə, bu cür paradların təşkili uşaq, yeniyetmə və gənclərin həyatında nə kimi rol oynayır?***

- Sözsüz ki, paradlar gənc nəslin vətənpərvər ruhda böyüməsində mühüm əhəmiyyət kəsb edir. Gənclərin orduya hazırlığı, onların milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi, qeyd etdiyim kimi, ən vacib məsələdir. Orduya hazırlaşan gənclərin hərbi paradlarda iştirakı, onların arasında vətənpərvərlik mövzusunda geniş söhbətlərin aparılması gənclərimizin vətənin müdafiəçiləri kimi formalaşmasında xüsusi rol oynayır. Sumqayıt məktəblərində də bu iş ön plandadır. Məktəblərdə milli qəhrəmanlarımızın foto-stendi yaradılıb, Qarabağda igidlik göstərən oğullarımız barədə şagirdlərlə söhbətlər aparılır, diskussiyalar təşkil olunur. Sumqayıtlı şagirdlər "Cəsurlar" və "Şahinlər" hərbi-idman oyunlarında iştirak etməklə hərb sənətinin incəliklərinə yiyələnirlər. Onların hər biri sabahın əsgərləri, vətənimizin keşikçiləri olacaqlar. Bu baxımdan şagirdlərimizin hərbi-idman oyunlarında, eləcə də hərbi paradlarda iştirakı onların vətənpərvər ruhda tərbiyəsinə müsbət təsir göstərir. Hesab edirəm ki, məhz bu cür tədbirlər gənc nəslin vətən sevgisini, torpağa bağlılığını artırır, onlarda milli mənlik şüurunu formalaşdırır. Ümumiyyətlə, böyüməkdə olan gənc nəslin vətənə sədaqət ruhunda tərbiyə edilməsi qarşımızda duran başlıca vəzifələrdəndir. Buna görə də Sumqayıt məktəblilərinin "Vətənin müdafiəsinə hazıram" hərbi idman oyunlarında iştirakı təmin edilir. Biz 26 İyun Silaşlı Qüvvələr Günü münasibəti ilə "N" saylı hərbi hissəyə güləş döşəyi, ağır atletika avadanlıqları, boks kisəsi, kanat, idman geyimləri, şahmat, dama avadanlıqları təqdim etmişik. Bununla yanaşı, bu il 20 Yanvar, Xocalı Soyqrımı, Sumqayıt hadisələri ilə bağlı dəyirmi masa, disputlar, sumqayıtlı şagirdlərin əl işlərindən ibarət sərgi keçirmişik. Ümummilli lider Heydər Əliyevin şəhərdəki abidəsini və Şəhidlər Xiyabanı Kompleksini yüzlərlə gənc ziyarət edib.

***- Yeniyetmə və gənclərin pis vərdişlərdən uzaqlaşdırılması, sözsüz ki, ən vacib məsələdir...***

- Doğru deyirsiniz, yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliği, narkomaniyanın proflaktikası önəmli məsələdir. Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsi bu önəmli məsələnin həllində fəallıq göstərir. Hər il olduğu kimi bu il də ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin arasında "Ağ ölümə yox deyək" devizi altında tədbir keçirilib. Bu tədbirdə şəhərin Təhsil Şöbəsi, Ağsaqqallar Şurası, Polis İdarəsi, Sumqayıt Rayonlararası Narkoloji Dispanserin nümayəndələri iştirak ediblər.




***- Sumqayıtda yeniyetmə və gənclərin intellektual fəaliyyətə cəlb edilməsini qənaətbəxş hesab etmək olarmı?***

- Şəhərimizin gənc sakinləri arasında sağlam elmi rəqabət mühitinin yaradılması, onların asudə vaxtların səmərəli təşkili bizim illik proqramma daxildir. Bu məqsədlə Heydər Əliyev Mərkəzində "Xəmsə" milli intellektual oyunu üzrə IX Azərbaycan çempionatının Sumqayıt şəhər seçim turu keçirilib. Şəhərimizin "Eldorado" komandası zona mərhələsinin qalibi kimi may ayında Balakən rayonunda təşkil olunan final mərhələsində mübarizə aparıb. Komandamız həlledici mərhələdə 32 komanda arasında ən yüksək xal toplayaraq Azərbaycan çempionu adına layiq görülüb. Bu ilin arxada qalan 6 ayı ərzində Baş İdarə tərəfindən peşə, sahibkarlıq, ailə, maliyə, psixologiya, İKT və digər mövzularda silsilə tədbirlər, seminarlar keçirmişik. Gənclərin kompyuter biliyinin artırılması üçün ödənişsiz kurslar, bədii-əyləncəli tədbirlər təşkil edilib.

***- Sumqayıtlı gənclərin respublikamızın müxtəlif bölgələrə ekskursiayları da ənənəvi xarakter alıb. İstərdik ki, bu barədə məlumat verəsiniz.***

- Gənclərin hərbi hazırlıq səviyyəsinin yüksəldilməsi, hərbi hissələrə ekskursiyaların təşkil olunması kimi məsələlərə şəhərimizdə çox böyük önəm verilir. Biz bu tədbirləri təkcə Sumqayıtda deyil, şəhərin ətraf qəsəbələrində də həyata keçiririk. Düşünürük ki, bu tədbirləri gələcəkdə daha sistemli şəkildə, yeni metodlar əlavə olumaqla davam etdirək. Qeyd edim ki, Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə son illər gənclərin müxtəlif rayonlara ekskursiyaları təşkil olunur. Bu tədbir "Vətənimizi gəzək, öyrənək" devizi altında keçirilir. Yeri gəlmişkən deyim ki, bu ilə qədər 10 minə yaxın yeniyetmə və gəncin Quba rayonundakı soyqrım məzarlığına ziyarətini təşkil etmişik. Bu il iyulun 21-də Sumqayıt gənclərinin Quba rayonunda "yay məktəbi"nin təşkilinə başlanılıb. Gənclərə milli vətənpərvərlik hisslərinin aşılanması, ölkəmizin bölgələrini tanımaları və asudə vaxtlarının səmərəli təşkili məqsədi ilə keçirilən "yay məktəbi"ndə şəhərimizin ictimai fəal gəncləri iştirak edirlər. Biz Qusar rayonuna səyahət də həyata keçirmişik. Ekskursiyanın açılış mərasimi Sumqayıtda ümummilli lider Heydər Əliyevin adını daşıyan mərkəzdə oldu. Sonra gənclərin bir qrupu Qusara yola düşdü. Rayonda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdikdən sonra "Qanlı dərə"də qəhrəman igidlərimizin xatirəsinə ucaldılmış abidəni ziyarət etdik. Hesab edirəm ki, bütün bunlar gənclərimizin tariximizi öyrənmək baxımından çox böyük əhəmiyyət kəsb edir. Sonra gənclərimizi Şahdağ Dağ-Xizək kompleksinə apardıq. Gənclərimiz qüdrətli dövlətimizin iqtisadi gücünün, qüdrətinin nəticəsinin əyani şahidi oldular. Şahdağ kompleksi nəinki MDB məkanında, hətta bir çox inkişaf etmiş ölkələrdəki idman komplekslərindən biridir. Gənclərimiz həmin tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə apardığı islahatların nəticəsini gördülər. Onlar ölkəmizin həm iqtisadi, həm də hərbi gücünün inkişafının bir daha şahidi oldular. Sevindiricidir ki, bu inkişaf təkcə mərkəzdə deyil, ölkəmizin sərhəd rayonlarında da gedir. Qusar rayonuna səfərimiz gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, onların dostluq əlaqələrinin qurulmasında çox böyük rol oynayır. Bunlar da vətənpərvərlik üçün çox vacib məsələlərdən biridir. Gələcəkdədə biz bu işləri davam etdirəcəyik.

***- Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində daha hansı tədbirlər həyata keçirilir?***

- Vətənpərvərlik mövzusunda rəsm müsabiqələri, şeir müsabiqələri təşkil edirik. Məlumat üçün deyim ki, Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin "Qanadlandıq uçmağa" adlı almanaxı var. Bu almanaxda 14 ilə yaxındır ki, sistemli şəkildə vətənpərvərlik mövzusunda şeir və rəsm mövzuları toplanılır. Sonra isə bu mövzular toplum şəkildə çap edilir və təqdimatı keçirilir. Yeri gəlmişkən deyim ki, "Qanadlandıq uçmağa" almanaxının 10-cu buraxlışında Azərbaycan Yazıçılar Birliyinin sədri Anar və Fikrət Qoca iştirak etmişdilər. Bunun özü də gənclərdə böyük ruh yaradır. Ölkəmizin tanınmış simaları ilə keçirilən belə görüşlər gənclərdə vətənpərvərlik hissləri baxımından fikir formalaşdırır. Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsi gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün də bir sıra tədbirlər görür. Hər il şəhərimizdə bizim tərəfimizdən mini futbol yarışları təşkil olunur. Bu yarışlar iki aya yaxın davam edir. Həvəskar velosipedçilərin yarışları da şəhərimizdə böyük təntənə ilə keçirilir. Bu yarışda ümumilikdə 400-ə yaxın gənc mübarizə aparır. Məhəllə və mikrorayonlar arasında şahmat və dama yarışları keçiririk. Bu da gənclərin bir-birlərini yaxından tanımaq və şəhərin ən güclüsünü müəyyən etmək baxımından çox gözəl əhəmiyyət daşıyır. Düşünürəm ki, bütün bunlar vətənpərvərlik hisslərinin müəyyən tərkib hissəsidir. Bütün idman növləri üzrə, gənclərlə iş sahəsi üzrə keçirdiyimiz tədbirlərdə qalibləri mükafatlandırırıq.

***- Gənclərlə Qarabağ müharibəsi veteranları arasında görüşlər təşkil olunurmu?***

- Bəli. Bu görüşlər mütəmadi olaraq təşkil olunur. Sumqayıt şəhərində Ağsaqqallar Şurası adlı qurum fəaliyyət göstərir. Ağsaqqallar Şurası ilə Gənclər və İdman Baş İdarəsinin və Təhsil Şöbəsinin birgə təsdiq etdiyi bir proqram var. Proqram əsasında nəzərdə tutulan tədbirlər mütəmadi olaraq həyata keçirilir. Sumqayıtlı ağsaqqallar ilə gənclərin tez-tez görüşləri təşkil olunur. Ağsaqqallar gənclərə məsləhət və tövsiyələr verirlər. Müharibə veteranları ilə gənclərimizin görüşü məktəblərdə, hərbi hissələrdə təşkil olunur. Qarabağ müharibəsində iştirak edən igidlərimizlə keçirilən görüşlər gənclərin vətənpərvərlik tərbiyəsində xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsi olaraq hərbi hissələrdə əsgərlərin asudə vaxtlarını təşkil etmək üçün müəyyən tədbirlər və konsert proqramları təşkil edirik. Bünlar hamısı bizim iş proqramımızda olan məsələlərdir. Bundan əlavə, narkomaniyanın zərərli tərəflərini göstərmək və gənclərin pis vərdişlərdən uzaqlaşdırılması üçün müəyyən videoçarxlar hazırlayıb nümayiş etdiririk. Bütün bunlar vətənpərvəlik hisslərinin aşılanmasında, gənclərin sağlamlığında mühüm rol oynayır. Təcrübə də göstərir ki, birgə fəaliyyət və iş bu məsələlərdə çox vacibdir. Şəhərimizdə həm mədəniyyət, həm də hərbi sahədə çoxlu tədbirlər keçirilir. Bu tədbirlər gələcəkdə də davam etdiriləcək.

***- Məlumdur ki, vətənimizin keşiyində yalnız fiziki cəhətdən sağlam gənclər dayanır. Sumqayıt şəhəri özünün idmançıları ilə də tanınır. Burada fəaliyyət göstərən idman ocaqları ilə əlaqələriniz hansı səviyyədədir?***

- Məncə, vətənpərvərlik tərbiyəsi və fiziki tərbiyə vəhdət təşkil edəndə daha səmərəli olur. Bu gün gənclərlə iş dövlətimizin siyasətinin əsas məsələlərindən biridir. Gənclərimizin sağlam və vətənpərvər ruhda böyüməsi üçün müxtəlif bölgələrdə idman ocaqları fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin bu sahədə yeritdiyi məqsədyönlü siyasətin nəticəsidir ki, respublikamızda artıq 40-dan çox müasir tipli Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilib. Son illərdə təkcə Sumqayıt şəhərində iki böyük kompleks inşa olunub. Hazırda Mehdi Hüseynzadə adına şəhər stadionunda yenidənqurma işləri aparılır. İdarəmiz şəhərimizdə olan idman ocaqları ilə müntəzəm əlaqə saxlayır, qarşıya çıxan problemləri həll etməyə çalışırıq. Qürur hissi ilə deyə bilərəm ki, son 10 ildə Sumqayıt şəhərinin xeyli idmançısı dünya və Avropa kubokunda, habelə digər beynəlxalq yarışlarda 1-ci yeri tutub. Dünya, Avropa və Olimpiya Oyunlarında mükafatçılar sırasında sumqayıtlı gənclər də yer alır. Son illərdə 20-ə yaxın idmançımız "Tərəqqi" medalına layiq görülüb. Düşünürəm ki, dövlət tərəfindən göstərilən bu qayğı gənclərimizə xüsusi bir stimul verir. Onlar çalışırlar ki, bu etimadı layiqincə doğrultsunlar. Fiziki sağlamlıq vətənpərvərlik tərbiyəsinin əsasını təşkil edən amillərdən biridir. Bu baxımdan, sumqayıtlı gənclərin vətənpərvər ruhda böyüməsi üçün hər cür imkan var.

***- Sumqayıtda "Gənclər evi" fəaliyyət göstərir.***

- Bura gənclərin öz intellektual bacarıqlarının nümayiş etdirmək üçün mühüm mərkəzə çevrilib. Hesab edirəm ki, "Gənclər evi"nin istifadəyə verilməsi Sumqayıt gənclərinin ictimai fəallığını daha da artırıb. Bütün bunlar gənclərimizin sağlam böyüməsi üçün atılan addımlardır. Əgər gənclərimiz sağlam, vətənpərvər ruhda böyüyərsə, ölkəmizin müstəqilliyi daha da qüdrətli olar, vətənimizin sərhədləri daha inamla qorunar.

Əminliklə deyə bilərəm ki, sumqayıtlı gənclər vətənimizin müdafiəsinə hazırdırlar. Bu isə ən önəmli bir işdir. Məktəblilərin vətən sevgisi, torpaqlarımızın hər qarışı uğrunda mübarizəyə hazır olması qəlbimizi ruhlandırır. Vətənimizin bütövlüyünün qorunması, işğalçıların tapdağı altında qalan torpaqlarımızın azad edilməsi gənc nəslin vətənpərvər ruhda yetişməsini önə çəkir. Gənclərimiz Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalanları, vətən üçün canını fəda edənləri unutmamalıdırlar. Sevinirəm ki, yeniyetmələr və gənclər Qarabağı unutmur, xalqımızın üzləşdiyi faciələrin tarixini dərindən öyrənirlər. Bütün bunlar isə, vətənimizin sabahı olan gənclərimizin milli mənlik şüurunun inkişaf etdiyinin göstəricisidir.

***- Mübariz müəllim, "Gənclik şəhəri"nin gənclərinin idman sahəsində əldə etdiyi nəticələr barədə nə deyərdiniz?***

- Təbii ki, fiziki tərbiyə ilə mənəvi tərbiyə biri-biri ilə sıx bağlıdır. Sumqayıtda bu iki önəmli məsələ paralel olaraq həyata keçirilir. Əvvəlcə onu deyim ki, Sumqayıtda ən müasir tələblərə cavab verən idman ocaqları fəaliyyət göstərir. Təmsilçilərimiz həm ölkədaxili, həm də beynəlxalq turnirlərdə iştirak edirlər. 2017-ci ilin 6 ayı ərzində şəhərdə 28 idman növü üzrə 216 şəhər birinciliyi və çempionat, təlim-məşq toplanışları keçirilmişdir. Bu tədbirlərdə 13 minə yaxın uşaq, yeniyetmə, gənc və yuxarı yaş qrupundan olan idmançılar iştirak ediblər. Sumqayıtın 843 nəfər nümayəndəsinin (idmançı, məşqçi, hakim) respublika birinciliklərində, çempionat və kubok yarışlarında iştirakı təmin olunur. 6 ay ərzində keçirilən respublika yarışlarında və beynəlxalq turnirlərdə idmançılarımız 481 medal (162 qızıl, 144 gümüş, 175 bürünc) əldə ediblər. Şəhərimizin idmançıları müxtəlif idman növləri üzrə Azərbaycanın yığma komandalarında çıxış edirlər. Yığma komandalarda yer alan təmsilçilərimiz beynəlxalq yarışlarda 11 qızıl, 12 gümüş, 13 bürünc medala layiq görülüblər. Bu ilin may ayında ölkəmizin ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında Sumqayıtın 20 idmançısı 9 idman növü üzrə yarışlarda gücünü sınayıb. Təmsilçilərimiz İslam Həmrəyliyi Oyunlarında 4 qızıl, 3 gümüş, 7 bürünc medal qazanıblar. İyun ayında Sumqayıt Şəhər İcra Hakimiyyətinin rəhbərliyi IV İslam Həmrəyliyi Oyunlarında fərqlənmiş idmançıları və onların məşqçiləri ilə görüşüb. Görüşdə idmançılara və məşqçilərə qiymətli hədiyyələr və pul mükafatları təqdim olunub. Şəhərdə bədən tərbiyəsi və idmanın inkişafında xidməti olan mütəxəssislərin yubiley mərasimləri keçirilib.

Dediyim odur ki, Sumqayıtda gənclərin sağlam həyat keçirməsi, onların vətənpərvər ruhda tərbiyə edilməsi istiqamətində atılan addımlar öz bəhrəsini verməkdədir. Biz əlimizdən gələni etməyə çalışırıq ki, gələcəyimiz olan gənclər fiziki cəhətdən güclü, mənəvi cəhətdən saf böyüsünlər.

***Hürrü Abdullayev***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Superkubokun sahibi Skopyedə müəyyənləşəcək

## “Kral klubu” “Qırmızı şeytanlara” qarşı...

Bu gün bütün planetin diqqəti Makedoniyanın Skopye şəhərinə yönələcək. “Telekom Arena”da qitənin iki ən güclü komandası “Real” - “Mançester Yunayted” arasında keçiriləcək 43-cü UEFA Superkubokunun qalibi müəyyənləşəcək.

Saat 22:45-də başalaycaq oyunu italiyalı hakimlər briqadası idarə edəcək.

Xatırladaq ki, UEFA Superkuboku ilk dəfə 1972-ci ildə təşkil edilib. İndiyə qədər 42 komanda bu mükafata yiyələnib.

İndiyədək 12 ölkə təmsilçisi kuboka yiyələnib. İspaniya klubları 13, İtaliya 9, İngiltərə klubları isə 7 dəfə kuboku qazanmaqla ilk “üçlük”də yer alıb.




Əvvəllər Kuboklar kuboku, sonra isə UEFA kuboku (indiki Avropa Liqası) turnirinin qalibi Çempionlar Liqasının ən güclüsü ilə qarşılaşıb. Bəzi vaxtlarda ev-səfər, bəzən isə neytral meydanda münasibətlərini aydınlaşdıran klubların “duelləri” bir neçə dəfə müxtəlif səbəblərdən baş tutmayıb.

Yalnız 1972-ci ildə klubların təşəbbüsü ilə baş tutan ilk Superkubok isə hələ də UEFA tərəfindən rəsmi tanınmayıb.

Həmin “dueli” də nəzərə alsaq, 42 mövsümdən 23-də Çempionlar Liqası, 12-də Kuboklar kuboku, 7-də Avropa Liqasının qalibi Superkuboka yiyələnib.

Klublar arasında “Barselona” və “Milan” liderdir - hərəsi 5 dəfə. “Real”, “Liverpul” və “Ayaks”ın hərəyə 3 Superkuboku olsa da, sonuncuların bir titulu qeyri-rəsmi sayılır.



# Useyn Bolt: “Artıq getmək vaxtım çatıb”

Dünyanın ən sürətli atleti sayılan yamaykalı Useyn Bolt karyerasının son yarışını üçüncü sırada başa vurub. Bu, 30 yaşlı idmançının Londonda keçirilən atletika üzrə dünya çempionatındakı son yarışında baş verib. Kişilər arasında 100 metr məsafəyə qaçışda qızıl medala amerikalı Kastin Qatlinin layiq görülüb. Hər kəs bu yarışda da Useyn Boltun birinci olacağını düşünürdü. Lakin amerikalı idmançı əfsanəvi yamaykalını qabaqlayıb. Maraqlıdır ki, dünya çempionu adını qazanan Kastin Qatlin yarışdan sonra Useyn Boltun qarşısında baş əyib.

Olimpiadalardan səkkiz dəfə qızıl medalla qayıdan yamaykalı idmançı artıq fiziki cəhətdən yorulduğunu və getmək vaxtının çatdığını deyib: “Qatlin əla rəqibdir, o, birinciliyə layiqdir. Bədənim mənə “artıq getmək vaxtı gəlib” deyir. İlk dəfə bir qaçışdan sonra ayağımda ağrı hiss etdim və bildim ki, artıq karyeramı başa çatdırmalıyam”.

# Amerikalı senatorlar: “Rusiya dünya çempionatına ev sahibliyi etmək hüququndan məhrum olunmalıdır”

Bir qrup amerikalı senator FİFA-ya müraciət edərək 2018-ci ildə Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatı üçün obyektlərin tikintisindəki əmək şəraitinin araşdırılmasını istəyib.

“RİA Novosti”nin yaydığı məlumata görə, müraciətdə bildirilir ki, FİFA fəhlələri və idmançıları məcburi əməkdən qoruyaraq insan haqları sahəsindəki öhdəliklərini yerinə yetirməlidir: “Dünyanın ən önəmli idman hadisəsi planetin ən zəif insanlarının çiyinlərində qurula bilməz”.

FIFA WORLD CUP RUSSIA 2018

Senatorlar hesab edir ki, əmək hüquqlarının pozulması faktları təsdiqlənərsə, Rusiya dünya çempionatına ev sahibliyi etmək hüququndan məhrum olunmalıdır.

Müraciəti respublikaçı və demokrat senatorlar - Marko Rubio, Bob Menendez, Riçard Blumental, Emi Klobuşar, Kori Qardner, Ed Marki, Şerrod Braun və David Pardyu imzalayıblar. Bu, senatorların bu yöndə ilk addımı deyil. Suriyanın İdlib vilayətində kimyəvi hücum hadisəsindən sonra senator R. Blumental FİFA-ya məktub yazaraq Bəşər Əsəd rejiminə dəstək verən Rusiyanın dünya çempionatını təşkil etmək hüququndan məhrum olunmasını istəmişdi.

Qeyd edək ki, bir müddət əvvəl “The Guardian” qəzeti Rusiyada stadionların tikintisində iştirak edən şimali koreyalı fəhlələrin hüquqlarının pozulması ilə bağlı FİFA prezidenti Canni İnfantinonun məktubunu dərc edib. Lakin bir qədər sonra təşkilatdan bildiriblər ki, FİFA monitorinq qrupu araşdırma aparıb və obyektlərdə Şimali Koreyadan olan fəhlə aşkarlanmayıb.

Rusiyada dünya çempionatı 2018-ci ilin 14 iyun - 15 iyul tarixləri arasında keçirilməlidir. Oyunlar Moskva, Sankt-Peterburq, Kaliningrad, Volqoqrad, Samara, Kazan, Nijnıy Novqorod, Soçi, Yekaterinburq, Saransk və Rostovda oynanacaq.



# 10 vəsiqəyə 20 namizəd

Ötən həftə UEFA Çempionlar Liqasının pley-off mərhələsinin püşkü atılıb. Qrup mərhələsinə 10 vəsiqə uğrunda pley-off mübarizəsi aparacaq 20 komandanın rəqibləri bəlli olub.

Avropanın aparıcı futbol ölkələrində yüksək yer tutan, amma çempion olmayanlar Liqa yolunda 5 cütə bölünüb. Öz ölkəsinin ən yaxşısı olan 10 klub isə Çempionlar yolunda 5 cüt təşkil edib. İlk dəfə bu mərhələdə təmsil olunan son ölkə çempionumuz “Qarabağ”ın da rəqibi bilinib.

Qurban Qurbanovun yetirmələri qitənin ən nüfuzlu klub turnirinin qrupuna vəsiqə uğrunda Danimarkanın “Kopenhagen” klubu ilə münasibətlərinə aydınlıq gətirəcək. Ağdamlılar ilk matçını evdə keçirəcək.

Bu, komandalar arasında 2-ci qarşılaşma olacaq. 1998/99-cu illər mövsümündə Kuboklar Kubokunda keçirilən matçlar danimarkalıların aşkar üstünlüyü ilə başa çatmışdı. “Qarabağ” hər iki matçda uduzmuş, ümumilikdə qapısından 10 top buraxmışdı - 0:6, 0:4.

Qeyd edək ki, pley-offun ilk oyunları avqustun 15-16-da, cavab görüşləri 22-23-də keçiriləcək.

### UEFA Çempionlar Liqası

**Pley-off mərhələsi**

***Çempionlar yolu***

“Qarabağ” (Azərbaycan) - “Kopenhagen” (Danimarka)

APOEL (Kipr) - “Slaviya” (Çexiya)

“Olimpiakos” (Yunanıstan) - “Riyeka” (Xorvatiya)

“Seltik” (Şotlandiya) - “Astana” (Qazaxıstan)

“Hapoel” (Beyer-Şeva, İsrail) - “Maribor” (Sloveniya)

***Liqa yolu***

“Başakşəhər” (Türkiyə) - “Sevilya” (İspaniya)

“Yanq Boyz” (İsveçrə) - MOİK (Rusiya)

“Napoli” (İtaliya) - “Nitsa” (Fransa)

“Hoffenhaym” (Almaniya) - “Liverpul” (İngiltərə)

“Sportinq” (Portuqaliya) - “Styaua” (Rumıniya)

# Lionel Messi ən yaxşı oyunçu seçilib

“Barselona”nın argentinalı futbolçusu Lionel Messi İspaniya çempionatı tarixinin ən yaxşı oyunçusu seçilib. İspaniya futbol tarixinin tədqiqat və statistika mərkəzi (CIHEFE) portuqaliyalı Kriştianu Ronaldonu heç ilk onluğa da salmayıb. Hesabında 349 qolu olan Lionel Messi 545 xal toplayıb. 415 xal toplayan Ronaldu 17-ci yerdədir. İkinci pillədə 528 xalla “Real Madrid”in keçmiş futbolçusu Raul Qonzales (1994-2010) qərarlaşıb. Üçüncü yeri isə “Barselona”da çıxış etmiş Sezar Sançes (1939-1955) tutub - 524 xal.

Araşdırma çərçivəsində 9280 futbolçu və 86 ölkə çempionatı nəzərdən keçirilib. Təhlil zamanı oynanılan dəqiqələr, qollar, avtoqollar və qırmızı vərəqələr əsas götürülüb.

# İtaliyalı tennisçinin evini qarət ediblər

İtaliyalı tennisçi Roberta Vinçinin evi qarət olunub. Cinayətkarlar idmançının bütün cavahiratını və mükafatlarını oğurlayıblar. Bu barədə zərərçəkənin özü “Instagram” sosial şəbəkəsindəki səhifəsində məlumat verib.

Roberta Vinçi deyib: “Mən şəxsi həyatımın təfərrüatlarını bölüşməyə adət etməmişəm, çünki idmandan danışmağa üstünlük verirəm. Amma indi bu qaydanı pozuram. Bir neçə gün əvvəl bir dəstə soyğunçu Torontodakı evimə soxularaq qiymətli əşyalarımı oğurlayıb. Onların arasında maddi dəyəri emosional dəyəri ilə müqayisəyəgəlməz əşyalar - karyeram boyu qazandığım mükafatlarım var. Əlimə raket götürdüyüm ilk gündən qan-tər içində çalışaraq məqsədlərimə çatmışam. Mükafatlarım sadəcə bir simvol olsa da, nə üçün məşq etdiyimi, korta çıxdığımı və daha yaxşı olmağa çalışdığımı hər gün mənə xatırladırdı. Onların oğurlanması qorxaqlıq və kütlük jestidir. Bilmək istərdim ki, məqsədlərimə çatmağımın arxasında dayanan xatirələrim, göz yaşlarım, alnımın təri, təbəssümüm, qurbanlarım və işimə sədaqətim indi kimin əlindədir. Onlar bunları məndən və bu yolu mənimlə birlikdə qət edən insanlardan qopara bilməzlər”.

Otuz dörd yaşlı tennisçi öz karyerası ərzində on WTA turnirinin fərdi yarışlarında qalib gəlib, 2015-ci ildə açıq ABŞ çempionatının əsas matçının iştirakçısı olub və amerikalı Serena Uilyamsı yarımfinal mərhələsindən sıxışdırıb çıxarıb.

Bundan əlavə, italiyalı tennisçi WTA-nın himayəsi ilə keçirilən 25 turnirin qoşa yarışlarının, “Böyük dəbilqə” seriyasından dörd turnirin hamısının qoşa yarışlarının qalibi olub, Avstraliyanın açıq çempionatında isə hətta iki dəfə qalib gəlib.

*Çempionlar*

# Əfsanəvi boksçu

**Sanni Liston (əsl adı Çarlz Liston) 1932-ci il mayın 8-də doğulub. Ümumdünya Boksçular Şurası (ÜBŞ) onu özlərinin ilk çempionu adlandırıb.**

**Nailiyyətləri: peşəkar boksçular arasında ağır çəkidə dünya çempionu (1962-1964)**

### Sərtliyi ilə seçilən idmançı

Sanni Liston boks tarixində Mayk Tayson kimi “pis oğlan” adını qazanmış bir boksçu idi. Maraqlısı budur ki, onların taleyi və həyatlarının bəzi epizodları o qədər oxşardır ki, bəzən onları eyni adam hesab edirlər. Hər ikisi ilk dəfə boksla həbsxanada məşğul olublar. Hər ikisi əvəzedilməz boksçu idilər.

Liston 1949-1950 -ci illərdə həyatda sağ qalmaq üçün bəzi qanun pozuntuları, cinayətlər etməyə məcbur qalmışdı, lakin yaşı az olduğuna görə həbs edilmirdi. Törətdiyi cinayətlərin sayı artığı üçün hüquq, mühafizə orqanları onu üç illik azadlıqdan məhrum etdilər. Deyilənlərə görə, məhz bu illər ərzində həbsxanada buddist rahibin rəhbərliyi altında Liston ilk məşqlərini edib. Cəza evindən çıxar-çıxmaz Sanni həvəskar karyerasına başladı. Bir il keçəndən sonra Liston bir neçə döyüşdə iştirak edərək böyük qələbələr əldə etdi. Sanni tərəfindən məğlub edilənlərin sırasında Olimpiya çempionu Ed Sanders də var idi. Liston iri ölçüləri olan boksçu idi. Boks həvəskarları arasında “sizin fikrinizcə, Listonun boyu nə qədərdir”mövzusunda sorğu keçirilib. Sorğudan alınan cavab isə belə idi: Sannini boyu 2 metrdən hündürdür. Əslində isə Liston 185 sm boya malik idi. O, superağır çəkili boksçu deyildi. Belə ki, karyerasının başlanğıcında çəkisi 92 kq-dan az olub. Onun kürəkləri enli, əlləri isə boyuna görə fenomenal uzunluğa malik idi. Listonun əlinin gücü Məhəmməd Əlinin, Lennoks Lyuisin, Kliçko qardaşlarının və Nikolay Valuyevin analoji göstəricilərini üstələyirdi. Hər dəfə döyüşəndən sonra sanki onu süni olaraq qıcıqlandırırdılar. O, sərt xasiyyətə və güclü yumruqlara malik olduğundan döyüşdə centlmenlik cərçivəsindən çıxırdı. Bəzən Liston öz zərbəsinin gücünü ram edə bilmədiyindən onun rəqibləri tez-tez nokauta düşürdülər. Əvvələr Sanni döyüşdə bir çox çətinliklərlə üzləşirdi. Belə ki, texniki cəhətdən pis hazırlığı olduğu üçün nisbətən təcrübəli rəqiblər onu seriya zərbələrindən yayındırıb, məsafə döyüşünə sövq edirdilər. Bu mövqedə isə Liston bir qədər zəif idi. Liston üç debüt görüşü keçirmiş ,yalnız bir dəfə qələbəni əldən vermişdi. Ancaq bu məğlubiyyətdən sonra o, döyüş tərzini dəyişdi və qələbəyə doğru yolu daha inamlı oldu.

### Dəmir barmaqlıqlar onu bir müddət rinqdən kənarda qoydu

Liston Floyd Pattersondan üç il əvvəl doğulmuş, karyerasına isə ondan bir il gec başlamışdı. O, Rokki Marsianodan sonra birinci çempion ola bilərdi, lakin qəliz və sərt xasiyyətinə görə bu imkanı əldən vermişdi. 1956-cı ildə o, ikinci dəfə Marti Marşal ilə revanş görüşü keçirdi və əldə olunan qələbənin sayəsində Liston reytinq cədvəlində yuxarı sıralarda qərarlaşdı. Ondan tələb olunurdu ki, reytinqdə birinci yerdə olan boksçular üzərində qələbə çalsın. Bu ərəfədə Floyd Patterson özünün 28-ci qələbəsini qazandı. Lakin Floydun bir məğlubiyyəti var idi. Həmin vaxt mütləq çempion titulu üzrə yarış keçirilməsi haqqında söhbətlər gəzirdi. May ayında Liston onu “zənci” adlandıran yol polisini döyərək silahını əlindən almışdı. Buna görə boksçunu 8 ay müddətinə həbs etdilər və o, yarışlarda iştirak edə bilmədi. Maraqlıdır ki, bu hadisə eynilə Taysonun da başına gəlmişdi. Belə ki, “dəmir Mayk”1991-ci ildə öz çılğın xasiyyətinin üzündən çempionluq uğrunda döyüşü qaçırmışdı. Sanni cəzasını çəkərkən, Floyd Patterson və 40 yaşlı Arçi Mur ağır çəkidə çempionluq titulu uğrunda mübarizə apardılar və Patterson çempion oldu. Sanninin yoxluğundan faydalanan Floyd çempionluq titulunu müdafiə etmək üçün debütantla görüş keçirdi və çətinliklə olsa da, titulunu qoruyub saxladı.



***Hazırladı: Hürrü Abdullayev***

*(ardı var)*

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19